*Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 983-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə minatəmizləmə fəaliyyətinin təşkili, təkmilləşdirilməsi, inkişafı və möhkəmləndirilməsi sahələrində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin 25 illiyi (1998-2023)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

Azərbaycan.- 2023.- 5 avqust.- S. 8.